

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 53 (22.964)

*18 mart 2018-ci il, bazar*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Muxtar Respublikasına yeni kənd təsərrüfatı texnikaları gətirilib





Kənd təsərrüfatında mütərəqqi metodların tətbiqi, müasir texnika və texnoloji avadanlıqlardan istifadə mühüm əhəmiyyətə malikdir. Naxçıvan Muxtar Respublikasında bu istiqamətdə ardıcıl tədbirlər görülür, torpaq mülkiyyətçilərinin texnika ilə təminatı diqqətdə saxlanılır.

Martın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti tərəfindən alınmış yeni kənd təsərrüfatı texnikalarına baxmışdır.

“Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin baş direktoru Vasif Məmmədov məlumat vermişdir ki, cəmiyyətin fəaliyyəti dövründə muxtar respublikaya 2213 texnika və texnoloji avadanlıq alınıb gətirilmiş, onlardan 1808-i sahibkarlara satılmışdır. Lizinqə götürüləcək kənd təsərrüfatı texnikalarının ilkin dəyərinin 20 faizi ödənildikdən sonra dövlət büdcəsi hesabına onların ilkin dəyərinin 40 faizi həcmində güzəşt tətbiq edilir ki, bu da kənd təsərrüfatının inkişafına öz töhfəsini verməkdədir. Bundan başqa, 2016-cı ildən başlayaraq muxtar respublikada suvarma sistemlərinə də dövlət büdcəsi hesabına 40 faiz güzəşt tətbiq edilir. Əhalinin keyfiyyətli ət və süd məhsullarına olan tələbatını ödəmək, eyni zamanda qaramalın cins tərkibinin yaxşılaşdırılması istiqamətində də bir sıra işlər görülmüşdür. “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin xətti ilə muxtar respublikaya 1927 baş damazlıq cins mal-qara gətirilərək satışı həyata keçirilmişdir. Arıçılıq təsərrüfatları üçün də ləvazimatların alınması diqqətdə saxlanılmış, arı pətəkləri və balsüzən maşınlar alınıb gətirilmişdir.



Texnikalara baxış zamanı bildirilmişdir ki, bu il 6 taxılsəpən, 15 kotan, 8 otbiçən, 4 çizel, 8 gübrəsəpən, 10 otdoğrayan maşın, 6 suvarma sistemi və digər texnoloji avadanlıqlar olmaqla, 59 texnika alınmışdır. Sərfəli şərtlərlə uzun müddətə lizinqə verilən kənd təsərrüfatı texnikaları yüksək keyfiyyət göstəricilərinə malikdir. Yeni texnika və avadanlıqlar əkin sahələrində, eləcə də təsərrüfat işlərində mütərəqqi aqrotexniki qaydaların tətbiqinə imkan verəcəkdir.

Ali Məclisin Sədri “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin bitkiçilik və heyvandarlıq aptekinə, eləcə də ehtiyat hissələri və gübrə anbarlarına baxmışdır.

Qeyd olunmuşdur ki, bitkiçilik və heyvandarlıq aptekində kənd təsərrüfatının müxtəlif sahələrində istifadə olunan dərmanlar satışa çıxarılır. Dərmanların istifadə qaydası haqqında torpaq mülkiyyətçilərinə və fermerlərə əvvəlcədən məlumat verilir, izahat işləri aparılır. Cəmiyyətin anbarında kənd təsərrüfatı texnikalarının ehtiyat hissələri də vardır. Gübrə anbarında da tələbata uyğun ehtiyat yaradılmışdır.

Ali Məclisin Sədri sahibkarların tələbatına və sifarişinə uyğun texnika və gübrələrin alınıb gətirilməsi, “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətində və rayon bazalarında texnikaların ehtiyat hissələrinin, arıçılıq ləvazimatlarının və dərmanların satışının həyata keçirilməsi, kənd təsərrüfatında mütərəqqi metodlardan və texnikalardan istifadə ilə bağlı maarifləndirmə işlərinin aparılması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Qədim və müasir Naxçıvan həm də mühüm sənaye şəhəridir



***Tarixən Şərqin mühüm sənətkarlıq və mədəniyyət mərkəzlərindən sayılan Naxçıvan ölkəmizin tarixində, eləcə də müasir inkişafında əhəmiyyətli rol oynayır. Beşminillik şəhər mədəniyyətinə malik Naxçıvan köksündə qədim qala divarları, dini və mədəni abidələri, maraqlı arxeoloji nümunələri ilə seçilir. Azərbaycanın milli dövlətçilik ənənələrinin yaşadıldığı bu qədim şəhər bu gün həm də müasirliyi ilə tanınır. Şəhərin hansı səmtinə üz tutsaq, tarixi tikililərlə bərabər, müasir binaları da görmək mümkündür. Milli memarlıq ənənələrinin müasir mühəndislik nümunələri ilə yaratdığı koloritlik şəhərin ecazkar aurasına məxsusi gözəllik verir. Son illərdə muxtar respublikanın sosial-iqtisadi inkişaf templərinin artan xətt üzrə davam etməsi isə Naxçıvan şəhərinin simasında yeni işgüzar ruhun formalaşmasına yol açıb. Yəni tarixi, mədəniyyəti, incəsənəti ilə seçilən bu qədim şəhər indi həm də regionda çoxsaylı sənaye məhsullarının istehsal olunduğu məkan kimi diqqət çəkir.***

Qeyd edək ki, ölkəmizdə həyata keçirilən çoxşaxəli iqtisadi inkişaf strategiyasının əsas məqsədlərindən biri də sənaye məhsulları istehsalı ilə regionların tarazlı inkişafına, o cümlədən yerli istehsal və əmək potensialından səmərəli istifadə etməklə ixracyönümlü hazır məhsul istehsalına nail olmaqdan ibarətdir. Çünki enerji və ərzaq təhlükəsizliyi ilə bərabər, sənaye məhsulu istehsalı da ölkənin iqtisadi təhlükəsizliyinin əsas şərtlərindən biridir. Milli iqtisadiyyatımızın hazırkı inkişaf dövründə mövcud sənaye imkanlarından maksimum yararlanmaq, dinamik məhsul istehsalında dayanıqlılığı təmin etmək məqsədilə yeni istehsal müəssisələrinin yaradılması qarşıda duran əsas vəzifələrdəndir. Regional inkişafa göstərilən bu vacib diqqət Naxçıvan Muxtar Respublikasında da sənayenin inkişafına şərait yaradıb. Nəticədə, muxtar respublikada sənayenin müxtəlif sahələrinin inkişaf etdirilməsinə yönəlmiş kompleks tədbirlər bu sahədə müsbət nəticələrin əldə edilməsinə səbəb olub. Naxçıvan şəhəri isə hazırda muxtar respublika sənayesinin inkişafında əsl lokomotiv rolunu oynayır. Sənaye müəssisələrinin yaradılması üçün lazımi infrastruktur tədbirlərinin həyata keçirilməsi, o cümlədən yol, enerji ilə təminat, işçi qüvvəsinin cəlbi və sair parametrlər üçün mövcud imkanlar regionun bütün bölgələri üzrə bərabər şəkildə təmin olunsa da, demoqrafik baxımdan paytaxt şəhərin daha cəlbedici olması, istehlakçı imkanlarının çoxluğu sənayenin inkişafını müvafiq sahə ilə məşğul olan sahibkarlar üçün daha maraqlı edib. Məhz buna görədir ki, ötən il muxtar respublikada istehsal olunmuş sənaye məhsulunun 73,2 faizi Naxçıvan şəhərinin payına düşüb.

Naxçıvanın mühüm sənaye şəhəri kimi formalaşmasında ötən dövrdə burada həyata keçirilmiş infrastruktur və müxtəlif sosial-iqtisadi tədbirlərin mühüm rolu olmuşdur. Xüsusilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqramı”nın uğurlu icrası Naxçıvan şəhərində yeni iş yerlərinin yaradılmasına, kommunal xidmət və sosial infrastruktur təminatının həcminin və keyfiyyətinin artırılmasına, ümumilikdə, dinamik inkişafa təkan vermişdir. Əldə olunmuş uğurlar, qazanılmış nailiyyətlər ümumi inkişafı əks etdirən makroiqtisadi göstəricilərin artım tempini təmin etmişdir. Məsələn, Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin məlumatına görə, 10 il əvvəl – 2007-ci illə müqayisədə ümumi məhsul istehsalı 7,4 dəfə artaraq 2017-ci ildə 1 milyard 809 milyon 889 min manat təşkil etmişdir. Muxtar respublika üzrə ümumi məhsul istehsalının 52,6 faizi məhz Naxçıvan şəhərində qeydə alınmışdır. Güclü iqtisadiyyatın yaradılmasında mühüm yer tutan sənayedə 2017-ci ildə 707 milyon 412 min manatlıq məhsul istehsal olunmuşdur ki, bu da 2007-ci illə müqayisədə 11,5 dəfə çoxdur.

Vurğulamaq lazımdır ki, ötən dövrdə Naxçıvan şəhəri üzrə müsbət demoqrafik meyillərin artması əhalinin məşğulluğunu da ön plana çıxarmışdır. Yeni sənaye müəssisələrinin yaradılması isə əhalinin keyfiyyətli yerli məhsullarla təminatında xüsusi rol oynamaqla yanaşı, səmərəli məşğulluğunu da təmin etmişdir. Adıçəkilən komitənin məlumatında qeyd olunur ki, 2017-ci ildə sənaye sahəsində çalışanların sayı 2007-ci illə müqayisədə 2,2 dəfə artaraq 7128 nəfər, bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı isə 2,4 dəfə artaraq 429,6 manat təşkil etmişdir.

Göründüyü kimi, muxtar respublika iqtisadiyyatında mühüm yerə malik sənaye məhsulunun istehsalında Naxçıvan şəhəri xüsusi əhəmiyyət daşıyır. Bu isə o deməkdir ki, muxtar respublika sənayesində Naxçıvan şəhəri potensial imkanlara malikdir, eyni zamanda ixrac potensiallı məhsulların növ və çeşidinə görə də digər bölgələrimizdən öndədir.

**✍ Səbuhi HƏSƏNOV**

(əvvəli qəzetin 16, 17 mart 2018-ci il tarixli saylarında)



# Naxçıvan Muxtar Respublikası dinamik və dayanıqlı inkişaf yolundadır

***Müstəqillik illərində muxtar respublikada bütün sahələr öz dinamik yüksəlişi ilə diqqəti cəlb edir. Belə sahələrdən biri də səhiyyə sistemidir. Səhiyyə sisteminin yenidən qurulmasını, əhalinin sağlamlığının daha yaxşı təşkilini, bu sahədə yeni texnologiyaların tətbiqini və kadr potensialının hazırlanmasını özündə əks etdirən dövlət proqramları muxtar respublikada uğurla həyata keçirilir. Səhiyyənin inkişafı, insanların sağlamlığının qorunması, ilk növbədə, müasir tələblərə cavab verən, lazımi maddi-texniki imkanları və ixtisaslı həkimləri olan səhiyyə müəssisələrinin olması ilə bağlıdır.***

Muxtar respublikada bu istiqamətdə ardıcıl tədbirlər görülmüş, müasir tibb mərkəzləri, xəstəxanalar, ambulatoriyalar, dispanserlər, feldşer-mama məntəqələri və digər xarakterli səhiyyə müəssisələri tikilmiş, yaxud yenidən qurulmuş və təmir olunmuşdur. 1995-2017-ci illərdə muxtar respublikada 232 səhiyyə obyekti tikilərək, yaxud yenidən qurularaq istifadəyə verilmişdir. Bu illərdə Naxçıvan Muxtar Respublikasında Duzdağ Fizioterapiya



Mərkəzi, Doğum Mərkəzi, Diaqnostika-Müalicə Mərkəzi, Onkoloji Mərkəz, Əlillərin Bərpa Mərkəzi, Uşaq Bərpa Mərkəzi, Kardioloji Mərkəz, Yoluxucu Xəstəliklər Mərkəzi, Şərur, Babək, Ordubad, Culfa, Şahbuz, Kəngərli və Sədərək rayon mərkəzi xəstəxanaları, Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası, Akademik Zərifə Əliyeva adına Naxçıvan şəhər poliklinikasının və ümumilikdə, 180 səhiyyə obyektinin tikintisi, 52 səhiyyə obyektinin isə yenidən qurulması və ya əsaslı təmiri başa çatdırılmışdır.

Naxçıvan səhiyyəsinin intensiv inkişaf dövrü kimi xarakterizə olunan, 1995-2017-ci illərdə istifadəyə verilən səhiyyə müəssisələri bütün yaşayış məntəqələrini əhatə etmişdir. Ölkədə ilk dəfə olaraq pullu tibbi xidmətin məhz muxtar respublikada ləğv edilməsi, əhalinin sağlamlığının qorunması istiqamətində həyata keçirilən mühüm islahatlar öz faydasını verməkdədir. 2018-ci ilin əvvəlindən Sədərək rayonunda tibbi sığorta tətbiq olunmuşdur.

Muxtar respublikanın tibb xidməti müəssisələrində 792 həkim, 2981 tibb işçisi çalışır. Əhalinin hər on min nəfərinə 104 xəstəxana çarpayısı, 20 həkim, 85 orta tibb işçisi düşür. Xəstəxana çarpayılarının 24,8 faizi kəndlərdə, 75,2 faizi şəhər və rayon mərkəzlərindədir. Ümumiyyətlə, muxtar respublikada səhiyyə sisteminin maddi-texniki bazasının möhkəmləndirilməsi və bu sahədə aparılan islahatlar əhalinin sağlamlığının etibarlı qorunmasına şərait yaratmışdır.

Xalqların və dövlətlərin sürətli inkişaf yolu təhsildən keçir. Təsadüfi deyildir ki, hələ vaxtilə ulu öndər Heydər Əliyev cəmiyyət həyatında təhsilin rolunu yüksək qiymətləndirərək demişdir ki, təhsil millətin gələcəyidir. Ölkə Prezidenti cənab İlham Əliyev təhsilə “Azərbaycanın gələcəyini müəyyən edən prioritet sahə” kimi yüksək dəyər vermişdir. Təhsilə, onun inkişafına xüsusi əhəmiyyət verən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Təhsil elə səviyyədə olmalıdır ki, o, insanlara yeni texnologiyaları çevik mənimsəmək, əmək bazarında və şəxsi həyatda layiqli yer tutmaq, sağlam həyat tərzi, ətraf mühitə və cəmiyyətdə gedən proseslərə münasibətdə düzgün mövqe seçmək imkanı yaratsın”.***

1990-cı illərin əvvəllərindən başlayaraq ümumtəhsil sahəsində müəyyən dəyişikliklər baş verdi, liseylər, gimnaziyalar, kolleclər yaradıldı.

Muxtar respublikada təhsilin məzmunca yeniləşdirilməsi və keyfiyyətə nail olunması, təhsil müəssisələrinin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi, təhsil sahəsində müxtəlif proqramların həyata keçirilməsi istiqamətində fəal iş aparılmışdır. Nəticədə, respublikada zəngin biliyə, hərtərəfli intellektual səviyyəyə malik, fiziki və mənəvi cəhətdən sağlam gənclər yetişir.

Müstəqillik illərində çoxsaylı məktəb, uşaq bağçası tikilmiş, onların maddi-texniki bazası möhkəmləndirilmişdir. 1995-2017-ci illərdə muxtar respublikada 40182 şagird yerlik 129 ümumtəhsil məktəbi tikilmiş, 34024 şagird yerlik 52 ümumtəhsil məktəbi, eləcə də 19 məktəbəqədər təhsil müəssisəsi, 23 uşaq musiqi məktəbi, 3 orta ixtisas təhsil müəssisəsi yenidən qurulmuş və ya əsaslı təmir olunmuşdur.

Bu gün nəinki Naxçıvan şəhərində, hətta ən ucqar dağ və sərhəd kəndlərində də müasir tədris avadanlıqları, sürətli internetə çıxışı olan kompüterlər, elektron lövhələr, zəngin fonda malik kitabxanalar və idman zalları ilə təmin olunmuş məktəb binaları tikilib istifadəyə verilir. 2016-cı ildə 3414 şagird yerlik 12 məktəb binası istifadəyə verilmişdir. Bundan başqa, 380 yerlik Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyin, Naxçıvan Dövlət Texniki Kollecin, Ordubad texniki peşə və sürücülük məktəbinin və Naxçıvan şəhərindəki 640 şagird yerlik 3 nömrəli tam orta məktəbin binaları da yenidən qurularaq gənc nəslin istifadəsinə verilmişdir. 2017-ci ildə yeni tikilmiş məktəblərin sayı 10-a çatmışdır.

Təhsildə keyfiyyət dəyişiklikləri hər il artmaqda davam edir. Bunlar ali məktəblərə qəbulda və bu zaman yüksək bal toplayan abituriyentlərin sayında özünü göstərir. 2004-2005-ci tədris ilində 5409 nəfər məzun olmuş, bunlardan 3074-ü ali məktəblərə sənəd vermiş, 1024-ü qəbul olmuşdur (33,3 faizi). 2016-cı ildə 1737-si ali, 567-si orta ixtisas məktəblərinin tələbəsi adını qazanmışdır. Ali məktəblərə qəbul olunan məzunlardan 338-i imtahanlarda 500-dən yuxarı bal toplamışdır. Yüksək nəticə əldə edərək tələbə adını qazananlardan 4-ü Prezident təqaüdünə layiq görülmüşdür.

Məktəbəqədər təhsil müəssisələrinin geniş şəbəkəsi qurulmuşdur. 2001-2013-cü illərdə 2260 yerlik 11 məktəbəqədər təhsil müəssisəsi tikilmişdir. Son illər 17 məktəbəqədər təhsil müəssisəsi istifadəyə verilmişdir.

Naxçıvan şəhərində Heydər Əliyev adına Hərbi Lisey, Naxçıvan Tibb Kolleci, Naxçıvan Musiqi Kolleci və Naxçıvan Dövlət Texniki Kolleci fəaliyyət göstərir. Ötən dövrdə hərbi liseyi bitirən 2161 kursantdan 2027-si ali hərbi məktəblərə qəbul olmuşdur. Liseyin məzunlarından 1000-ə yaxını Azərbaycan Respublikası Silahlı Qüvvələrində zabit kimi xidmət edir. Hazırda liseydə 657 kursant təhsil alır. Orta ixtisas məktəblərində isə 1642 tələbə, 218 müəllim təhsil-tədris prosesinə cəlb olunmuşdur.

Son 25 ildə muxtar respublikada ali təhsil müəssisələrinin həyatında da ciddi dəyişikliklər baş vermişdir. 1967-ci ildən filial kimi yaranan, 1972-ci ildən müstəqil ali təhsil



müəssisəsinə, 1990-cı ildən universitetə çevrilən Naxçıvan Dövlət Universiteti 2002-ci ildən yüksək özünüidarəetmə, muxtariyyət statusu qazanmışdır. Hazırda universitetin 12 fakültəsində 58 ixtisas üzrə 5 mindən artıq bakalavr, magistr və doktorant təhsil alır. Bu ali təhsil ocağında 12 ölkədən 300-dən çox tələbə təhsil prosesinə cəlb olunmuşdur. Universitetdə elmi-pedaqoji fəaliyyətini davam etdirən 407 müəllimdən 2-si AMEA-nın həqiqi, 8-i isə müxbir üzvü, 35-i elmlər doktoru, professor, 186-sı fəlsəfə doktoru, dosentdir.

“Naxçıvan” Universiteti 1994-cü ildən Bakı Özəl Ali Kollecinin Naxçıvan filialı kimi fəaliyyətə başlamış, 1999-cu ildən müstəqil ali təhsil müəssisəsinə çevrilmişdir. 2015-ci ildən isə “Naxçıvan” Universiteti kimi fəaliyyət göstərir. Universitetdə 15 ixtisas üzrə bakalavr, 4 ixtisas üzrə magistr hazırlanır. Burada 80 professor-müəllim heyəti çalışır. İndiyədək universiteti 3245 nəfər bitirmişdir.

Naxçıvan Müəllimlər İnstitutu 2000-ci ildən Azərbaycan Müəllimlər İnstitutunun filialı kimi təsis edilmiş, 2003-cü ildən müstəqil ali məktəbə çevrilmişdir. Müəllimlər İnstitutunda 5 ixtisas üzrə 1067 nəfər tələbə təhsil alır, onların təlim-tərbiyəsi ilə 85 nəfər professor-müəllim heyəti məşğul olur. İnstitut üçün yeni tədris korpusu tikilmişdir.

Ümumiyyətlə, 3 ali təhsil müəssisəsində 66 ixtisas üzrə 7420 tələbə təhsil alır ki, onların təlim-tərbiyəsi ilə 562 professor-müəllim heyəti məşğul olur. Hazırda muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələrində 100-ə yaxın ixtisas üzrə kadr hazırlanır. Bu gün muxtar respublikanın bütün pillədən olan təhsil müəssisələrində 58 minə yaxın uşaq, şagird, tələbə və kursant, 10 minə yaxın müəllim vardır.

XX əsrin 90-cı illərinin ortalarında ölkə iqtisadiyyatında baş verən müsbət irəliləyişlər elm sahəsində də mühüm dəyişikliklərin baş verməsinə səbəb oldu. Azərbaycan milli elminə həmişə hamilik etmiş ümummilli lider Heydər Əliyev respublika rəhbərliyinə qayıdandan sonra elmə dövlət qayğısı artdı. Bu dövrdə muxtar respublikada Naxçıvan Regional Elmi Mərkəzi, Naxçıvan Kompleks Zona Təcrübə Stansiyası, Naxçıvan “Araz” Elm İstehsalat Birliyi, Naxçıvan Elmi-Tədqiqat Baytarlıq Stansiyası, Elm və Texnika Mərkəzi, Şamaxı Astrofizika Rəsədxanasının Batabat stansiyası fəaliyyət göstərir və onlar fundamental elmin müxtəlif sahələri üzrə tədqiqatlar aparırlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun təşəbbüsü və rəhbərliyi ilə 1996-cı ilin iyulunda “Uluslararası qaynaqlarda Naxçıvan” bey-



nəlxalq simpoziumunun keçirilməsi Naxçıvanda elmi mühitin inkişafına əsaslı təsir göstərdi. Sonrakı illərdə də beynəlxalq səviyyəli simpozium və konfranslar keçirildi. “Naxçıvanda ilk məktəbin yaranması və maarifçilik hərəkatının inkişafı” (1997), “Uluslararası Dədə Qorqud simpoziumu” (1998), “Yaxın tariximizdə Naxçıvan və Qars” (1999), “Naxçıvan Muxtar Respublikasının təbii ehtiyatları və onlardan istifadənin səmərəli yolları” (2001) və başqa tədbirlər elmi fəaliyyəti xeyli canlandırdı.

Ali Məclis Sədrinin təşəbbüsü və ulu öndər Heydər Əliyevin müvafiq sərəncamı ilə 2002-ci ildə AMEA Naxçıvan Bölməsi yaradıldı. Artıq bundan sonra elmin vahid elmi mərkəzdən əlaqələndirilməsi, elmi kadrların hazırlanması, Naxçıvanın hərtərəfli öyrənilməsi istiqamətində geniş imkanlar açıldı. AMEA Naxçıvan Bölməsinin təşəbbüsü və ali təhsil müəssisələrinin fəal iştirakı ilə “Naxçıvan: tarixi gerçəklik, müasir durum, inkişaf perspektivləri” (2006), “Naxçıvan bu gün: islahatlar, perspektivlər” (2007), “Nuh Peyğəmbər, dünya tufanı və Naxçıvan” (2009), “Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi” (2011), “Naxçıvan: ilkin şəhər və Duzdağ” (2012), “Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir” (2014), “Naxçıvanda Dədə Qorqud” (2015), “Naxçıvan qalaları: tarixdə və günümüzdə” (2016), “Naxçıvan türk-İslam abidələri” (2017) kimi beynəlxalq tədbirlər elmin müxtəlif problemlərinə həsr edilmiş, elmi əlaqələrin genişlənməsinə səbəb olmuşdur.

Elmin inkişafı bilavasitə yüksəkixtisaslı elmi kadrların hazırlıq səviyyəsindən, onların elmi fəaliyyətindən asılıdır. 1998-ci ildən Naxçıvan Dövlət Universitetində dörd ixtisas üzrə Dissertasiya Şurasının fəaliyyəti yüksəkixtisaslı elmi kadrların hazırlanmasına öz müsbət təsirini göstərmişdir. 1998-2010-cu illərdə bu şurada 104 nəfər namizədlik və doktorluq dissertasiyası müdafiə etmişdir. 2006-cı ildə AMEA Naxçıvan Bölməsinin nəzdində 3 ixtisas üzrə Dissertasiya Şurası yaradılmış, 2013-cü ildə isə bu şuraya namizədlik və doktorluq dissertasiyalarının müdafiəsini təşkil etmək səlahiyyəti verilmişdir. 2006-2017-ci illərdə şurada 106 nəfər, o cümlədən 8 nəfər elmlər doktoru dissertasiyası müdafiə etmişdir. 2015-ci ildə həm AMEA Naxçıvan Bölməsində, həm də Naxçıvan Dövlət Universitetində yeni dissertasiya şuraları yaradılmışdır.

1998-2017-ci illərdə muxtar respublikada yaşayan tədqiqatçılardan 40 nəfər doktorluq, 172 nəfər isə namizədlik dissertasiyalarını müdafiə etmişlər. AMEA-ya 2003, 2007, 2014 və 2017-ci illərdə keçirilən seçkilərdə Naxçıvandan olan elm adamlarından 3-ü akademik, 13-ü müxbir üzv seçilmişdir.

1995-2017-ci illərdə tədqiqatçıların 318 monoqrafiyası, 862 kitabı, 360-dan çox dərslik, dərs və tədris vəsaiti, 1994 məqalə və tezisi nəşr edilmişdir.

*Ardı 3-cü səhifədə*



Naxçıvan Muxtar Respublikasında Ali Məclisin “Naxçıvan”, AMEA Naxçıvan Bölməsinin “Xəbərlər”, Naxçıvan Dövlət Universiteti, “Naxçıvan” Universiteti və Naxçıvan Müəllimlər İnstitutunun “Elmi əsərlər” jurnalları nəşr edilir. Naxçıvanlı tədqiqatçıların yaxından iştirakı ilə “Naxçıvan ensiklopediyası” (2 cilddə), “Naxçıvan abidələri ensiklopediyası” (iki cilddə), “Naxçıvan: tarixi və abidələri” (iki cilddə), “Naxçıvanın tarixi atlası”, “Dədə-Qorqud yurdu Naxçıvan: tarixi-coğrafi və etnoqrafik atlası”, “Naxçıvan folklor antologiyası” (3 cilddə), “Naxçıvan tarixi” (3 cilddə), “Naxçıvan teatrının salnaməsi” (1883-2008-ci illər), Naxçıvan Muxtar Respublikası flora və faunasının “Qırmızı kitab”ları (2 cilddə), “Naxçıvan Muxtar Respublikasının ampeloqrafiyası”, “Naxçıvan Muxtar Respublikasının təbii sərvətləri”, “Naxçıvan Muxtar Respublikasının dərman bitkiləri”, “Naxçıvan arxeologiyası” və başqaları elmi ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır.



İnkişaf səviyyəsinə görə muxtar respublikanın heç bir dövrünü 1995-2017-ci illərlə müqayisə etmək olmaz. Bu, mədəni-maarif müəssisələrinin inkişafına da aiddir.

Kitabxanaların fəaliyyəti, onların maddi-texniki bazası xeyli artmışdır. 1970-ci ildə 1286 min kitab və jurnal fondu olan 232 kütləvi kitabxana var idisə, 2000-ci ildə bu mədəniyyət müəssisələrinin sayı 2399 min nüsxə kitab və jurnal fondu olmaqla, 295-ə çatmış və ya 28,4 faiz və 1,9 dəfə artmışdır.

Muxtar respublikanın bölgələrində inşa olunan 100-dən çox kənd mərkəzində kitabxanalar üçün nümunəvi şərait yaradılmışdır. 2009-cu ildə inşa olunmuş kənd mərkəzlərində 11 kitabxana, 11 mədəniyyət evi və klub əhalinin istifadəsinə verilmişdir. Kitabxanalar içərisində M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanası fəaliyyəti ilə diqqəti həmişə cəlb etmişdir. Kitabxanada 4 bölmə və 10 şöbə vardır. Kitabxanada 290 minə yaxın kitab saxlanılır. Yeni elektron kitabxanalar yaradılmışdır.

Muxtar respublikada 265 klub, 272 mədəniyyət obyekti tikilmiş və ya təmir olunmuşdur. Burada 30 muzeydə 110 minə qədər maddi-mədəniyyət nümunələri nümayiş olunur. Üç dövlət teatrı və 4 xalq teatrı, 1 dövlət filarmoniyası, 1 uşaq dövlət filarmoniyası, Aşıqlar Birliyi fəaliyyət göstərir.

Naxçıvan ərazisindəki tarix və mədəniyyət abidələri ikinci həyatlarını yaşayırlar. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamından irəli gələn vəzifələrə uyğun olaraq muxtar respublika ərazisində aşkar edilmiş tarix və mədəniyyət abidələri qeydə alınmış və pasportlaşdırılmışdır. 60-dan çox tarix və mədəniyyət abidəsi bərpa edilmişdir. Naxçıvanqala, Əlincəqala bərpa edilmiş, orada tarix-mədəniyyət muzeyləri yaradılmışdır.

Naxçıvan diyarı zəngin ədəbi ənənələrə malikdir. Azərbaycan yazıçılarının böyük bir dəstəsi Naxçıvanda yaşayıb-yaradır. Azərbaycan Yazıçılar Birliyinin Naxçıvan şöbəsinin yaradılması, “Şərq qapısı” qəzetinin nəşri, yerli radio və televiziya verilişləri Naxçıvanda ədəbi mühitin canlanmasına ciddi təkan vermişdir.

Müstəqillik illərində Naxçıvan ədəbi mühiti xeyli canlanmış, təcrübəli şair və yazıçı, tənqidçilərlə yanaşı, gənc ədəbi qüvvələr də ədəbiyyata gəlmiş, öz sözü və qələmi ilə yaradıcılıq qabiliyyətlərini göstərmişlər.

Son illər mətbuat və incəsənət sahəsində də böyük nailiyyətlər əldə edilmişdir. Muxtar respublikada “Şərq qapısı” və rayon qəzetləri nəşr olunur. “Əcəmi” Nəşriyyat-



Poliqrafiya Birliyi, AMEA Naxçıvan Bölməsinin və ali təhsil müəssisələrinin nəşriyyatları yaradılmışdır. Musiqi və rəssamlıq sahəsində əldə edilmiş müvəffəqiyyətlər diqqəti cəlb edir.

Beləliklə, Naxçıvan Muxtar Respublikasında baş verən dəyişiklikləri ölkə rəhbəri yüksək qiymətləndirərək demişdir: ***“Çox şadam ki, Naxçıvan uğurla, sürətlə inkişaf edir, böyük quruculuq, abadlıq işləri aparılır. Son illər ərzində Naxçıvan böyük inkişaf yolu keçmişdir... Hesab edirəm ki, bu gün Naxçıvan Muxtar Respublikasının çiçəklənmə dövrüdür. Çünki bütün istiqamətlər üzrə işlər uğurla gedir və gözəl nəticələr var”.***

2017-ci il ölkəmizin tarixində olduğu kimi, muxtar respublikamızın həyatında da uğurlu bir il kimi yadda qalmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədri olduğu “Caspian European Club” ölkədə həyata keçirilən iqtisadi islahatların və sosial siyasətin nəticələrini əks etdirən Azərbaycan Respublikası regionlarının illik investisiya reytinqini müəyyənləşdirmişdir. Naxçıvan Muxtar Respublikası ən yüksək ümumi bal toplayaraq investisiya reytinqində lider olmuşdur. Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan iqtisadi siyasət, görülən işlər, irəli sürülən təşəbbüslər sayəsində respublikamız çox böyük uğurlar əldə etmişdir.

**İsmayıl HACIYEV**
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***
***“Xalq qəzeti”, 15 mart 2018-ci il***

## Turizm məkanları, müxtəlif müəssisələr və nüfuzlu təhsil ocaqları ilə tanışlıq tur-aksiya iştirakçılarının böyük marağına səbəb olub

***Martın 17-də “Ölkəmizi tanıyaq” tur-aksiyasının iştirakçıları Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunda olublar.***





Əvvəlcə “Farma Şah” Məhdud Məsuliyyətli Cəmiyyəti ilə tanış olan şagirdlərə bildirilib ki, 2009-cu il aprelin 27-də təsis edilən müəssisə 2010-cu ildən tam fəaliyyətə başlayıb. Şahbuz şəhərində yerləşən müəssisədə paketlənmiş dərman bitkiləri, çaylar və bəkməzlər istehsal olunur. Müəssisənin avadanlıqları Çin, İran və Almaniyadan gətirilib.

Batabat Astrofizika Rəsədxanasında səma cisimlərinin dinamikası və fizikasının öyrənilməsi istiqamətində aparılan araşdırmalar barədə məlumatları maraqla dinləyən şagirdlər rəsədxana ilə yaxından tanış olublar.

Şahbuz Dövlət Təbiət Qoruğu ilə tanışlıq isə buradakı muzeydən başlayıb. Məktəblilərə məlumat verilib ki, muzeydə qoruq ərazisindəki flora və faunaya aid eksponatlar nümayiş etdirilir. Qoruqda 2899 bitki növü yayılıb ki, bunların bir çoxu, məsələn, müxtəlifrəngli və ətirli süsən növləri, dağlarda yayılmış Şərq laləsi, ətirli yabanı qərənfil növləri, səhləb, paradoksal süsən və başqaları endemikdir.

Ölkəmizdə kənd turizminin tətbiqi sahəsində həyata keçirilən ilkin tədbirlərin nəticəsi kimi diqqəti cəlb edən Ağbulaq İstirahət Mərkəzi ilə tanışlıq da tur-aksiya iştirakçılarının marağına səbəb olub.

Şagirdlər Naxçıvan Dövlət Universiteti ilə də yaxından tanış olublar. Konservatoriya binasında məktəblilərlə görüş zamanı onlara ali təhsil ocağı barədə ətraflı məlumat verilib. Bildirilib ki, ali məktəb 80-dən çox tanınmış dünya universiteti ilə tərəfdaşlıq etməklə yanaşı, bir sıra beynəlxalq layihələrdə də uğurla təmsil olunur. “Naxçıvan Dövlət Universiteti üçün elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturunun yaradılması” layihəsi isə Azərbaycan ali məktəbləri üzrə ən irihəcmli layihədir. Ali təhsil ocağı Azərbaycanda elektron sənəd dövriyyəsinə və elektron idarəetmə sisteminə malik yeganə universitetdir. Universitetin İncəsənət fakültəsinin tələbələrinin ifasında konsert proqramı şagirdlərdə xoş əhval-ruhiyyə yaradıb.

Məktəblilər Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi Liseydə də olublar. Burada keçirilən görüşdə hərbi liseyin rəisi, general-mayor Elman Orucov çıxış edərək təhsil ocağı barədə ətraflı məlumat verib. Kursantların təhsilində hərbi hazırlığın xüsusi yer tutduğunu diqqətə çatdıran liseyin rəisi, onların nəzəri bilikləri öyrənməklə yanaşı, taktiki təlimlərdə də iştirak etdiklərini bildirib.

Çıxışlardan sonra tur-aksiya iştirakçıları tədris korpusları və kursant yataqxanası ilə tanış olublar. Şagirdlər Heydər Əliyev adına Hərbi Liseydən zəngin təəssüratla ayrılıblar.

Daha sonra Duzdağ Fizioterapiya Mərkəzinə gələn məktəblilərə səhiyyə müəssisəsi barədə ətraflı məlumat verilib.

Həmin gün axşam “Duzdağ” otelində tur-aksiya iştirakçıları üçün Naxçıvan Musiqi Kollecinin tələbələri tərəfindən təşkil edilən konsert proqramı təqdim olunub.

* * *

“Ölkəmizi tanıyaq” tur-aksiyası çərçivəsində Naxçıvan Muxtar Respublikasında olan Bakı şəhər məktəbliləri ilə həmsöhbət olduq.

***Yasamal rayonundakı Akademik Zərifə Əliyeva adına Liseyin 11-ci sinif şagirdi Fidan İbrahimova:***



– Möminə xatın türbəsi, Xan sarayı, Ordubad və Şahbuzun əsrarəngiz təbiəti və gözəlliyi məni valeh etdi. Biz Naxçıvanın möcüzəli təbiəti, qədim tarixi, inkişaf edən bölgələri və bu il ölkəmizin Gənclər Paytaxtı seçilən Naxçıvan şəhəri ilə yaxından tanış olduq. Muxtar respublika paytaxtı həqiqətən də çox gözəl, təmiz və gözoxşayan bir şəhərdir.

***Səbail rayon 132-134 nömrəli təhsil kompleksinin 10-cu sinif şagirdi Həvva Yusifova:***



– Çox sevinirəm ki, doğma Azərbaycanımızın ayrılmaz hissəsi olan Naxçıvandayam. Muxtar respublikanın gəzməli-görməli yerləri, tarixi abidələri haqqında əvvəllər də çox məlumatım olub. Ancaq necə deyərlər, yüz dəfə eşitməkdənsə bir dəfə görmək yaxşıdır. Burada olduğum üç gün ərzində Naxçıvanın tarixi keçmişinə dair çox şey öyrənmişəm.

Şahbuz rayonunda olarkən buranın zəngin flora və faunası ilə də tanışlıq imkanımız oldu. Bu bölgənin təmiz havası, çox gözəl təbiəti var. Naxçıvan səfərimiz mənim və dostlarımın Vətən, yurd sevgisini daha da artırdı. Bu səfər bizim həyatımızda unudulmaz xatirəyə çevriləcəkdir. Buna görə də yoldaşlarım adından dövlətimizə öz minnətdarlığımı bildirirəm.

***Yasamal rayon 20 saylı tam orta məktəb-liseyin 10-cu sinif şagirdi Nizami Xəlilov:***



– Bu cür tur-aksiyaların təşkil olunması şagirdlərin dünyagörüşünün, biliklərinin artırılması baxımından çox böyük əhəmiyyətə malikdir. Biz tarix dərsliklərindən Naxçıvanın qədim tarixə malik olduğunu oxumuşduq. Amma buradakı tarixi və mədəni abidələri ziyarət edərək bunu əyani şəkildə görmək və ətraflı məlumat toplamaq imkanım olduğu üçün özümü xoşbəxt hiss edirəm. Naxçıvan qədim tarixi abidələrlə zəngin bir diyardır. Naxçıvanın gözəl təbiəti və çox qonaqpərvər insanları var. Biz məktəblilər üçün bu tur-aksiyanın təşkil olunmasına görə Prezidentimizə məktəblilər adından minnətdarlığımı bildirirəm.

Naxçıvan Dövlət Universiteti və Heydər Əliyev adına Hərbi Liseylə tanış olarkən bu təhsil ocaqlarındakı şərait mənim diqqətimi cəlb etdi. Çalışacağam ki, gələcəkdə qəbul imtahanlarında yüksək bal toplayaraq mən də Naxçıvandakı ali təhsil müəssisələrinin birində oxuyum.

***Binəqədi rayon 267 saylı tam orta məktəbin 10-cu sinif şagirdi Tamerlan Xanbəyov:***



– Vətənimizin ayrılmaz bir parçası olan Naxçıvanı gəzib, tarixi abidələrlə tanış olub, dəyərli məlumatlar toplayırıq. Mənim üçün ən maraqlısı isə Batabat Astrofizika Rəsədxanası ilə tanışlıq oldu.

Rəsədxanada olmaq mənim çoxdankı arzum idi. Şahbuz Dövlət Təbiət Qoruğu ilə tanışlıq da çox maraqlı idi. Duzdağ Fizioterapiya Mərkəzi özünün təbii şəfa mənbəyi olması ilə dünyanın nadir yerlərindən biridir. Mən çox sevinirəm ki, Duzdağla yaxından tanış ola bildim. Naxçıvanı yaxından tanımaq üçün biz məktəblilərə yaradılan bu gözəl imkana görə, şagird yoldaşlarım adından minnətdarlığımı bildirirəm.

**Tural AĞAYEV**

# Novruz bayramı Ordubadda

***Doğma xalqımızın ən qədim adət-ənənələrini, milli-mənəvi dəyərlərini özündə yaşadan, milli təfəkkürümüzün ayrılmaz hissəsinə çevrilən Novruz bayramı rəsmi bayramlarımızdan biridir. Novruz təbiətin oyanışını, gecə ilə gündüzün bərabərləşməsini, əkinçilik mövsümünün başlanğıcını, yazın gəlişini özündə təcəssüm etdirən bayramdır. Bənövşə ətirli, nərgiz qoxulu Novruz ən uzunömürlü bayramdır; bizlərdə deyərlər, tut sovuşanacan, gilas ağaranacan Novruzdur.***



Bu bayram öz gəlişi ilə insanlarda canlanma, xoş əhval-ruhiyyə yaradır. Azərbaycanın hər bir bölgəsində özünəməxsus şəkildə qeyd olunan Novruz bayramı Ordubad rayonunda bir sıra xüsusiyyətləri ilə diqqət çəkir.

Yeni gün, yeni il bayramı hesab edilən Novruza hazırlıq tədbirləri bir neçə gün qabaqdan, çox vaxt elə ilk çərşənbədən başlanır. Bu sırada təmizlik (təzələnmək) işləri xüsusi yer tutur. Tədqiqatçıların sözləri ilə desək, "Ordubadda hələ Novruz bayramına bir ay qalmış evlərdə qapılar, pəncərələr, otaqların yeri, tavanı, divarları, şüşəbəndlər, eyvanlar və sair süpürülər, silinər, yuyular, tozdan-çirkdən təmizlənərdi. Həyətlər, bağçalar çalğı ilə təmizlənərdi. Xalça-palaz, yorğan-döşək, paltar və sair çırpılar, havaya sərilərdi. Ev-eşik, həyət-baca səliqə-sahmana salınardı".

Novruz bayramında insanların əsas arzusu yeni ilin bar-bəhərli olması, bolluq-bərəkət gətirməsi ilə bağlıdır. Odur ki, Novruza hazırlıq tədbirləri sırasında ordubadlılar azuqə tədarükünə xüsusi diqqət yetirərlər: "Bayram üçün azuqə – yarma, əriştə, ət (və ya qovurma), yağ, yumurta, düyü, doşab, qənd, şəkər, bal, şirniyyat, quru meyvə, çərəz və sair tədarük olunar, bayram üçün təzə paltarlar, hədiyyələr, ev əşyaları alınardı.

Ordubadda bayrama iki həftə qalmış səməni cücərdirlər. Bayram kökəsi, cəvizli kökə, yağlı kətə və digər şirniyyatlar bişirərlər. Atababadan qalma adətlərdən biri də doğmaların məzarlarını ziyarətdir. Axır çərşənbədən əvvəlki cümə axşamı əvvəl qadınlar, sonra isə kişilər dəstə ilə qəbiristanlığa gedər, məzarları ziyarət edər və dua oxuyarlar. Qəbirüstünə gedilən gün halva çalınması vacib ənənələrdən biridir.

Bayramdan qabaq, ilaxır çərşənbədə qızlar, gəlinlər qulaq falına çıxar, qohumların, qonşuların söhbətlərinə xəlvəti qulaq asar, eşitdiklərini yozarlar. Ona görə də bayram günlərində xoşagəlməz hadisələr haqqında danışılmaz, kədərli xatirələr yada salınmaz, şən əhval-ruhiyyədə olar, xoş sözlər söylənilər.

Axır çərşənbə zamanı axşamlar evlərin həyətində tonqallar qalanır. Bayram axşamı yandırılan tonqaldan xeyir-bərəkət istənilir. Həmin gün əhalinin çox hissəsi ən gözəl libaslarını geyinir. Bu günü həmişə çox şən keçirirlər ki, il insanlar üçün



uğurlu və düşərli olsun. Bunun üçün ürəklərindən keçən arzuları, niyyətləri tutub alovun üstündən tullanırlar. Bu zaman deyilir: "Ağırlığım, uğurluğum bu odda yansın". Səhər sübh tezdən insanlar gedib çaylarda, arxlarda, bulaqlarda əl-üzlərini, ayaqlarını yuyar, su üstündən adlayarlar.

Ordubadda Novruzun ən çox sevilən ərəfəsi məhz "Yeddiləvin"lə əlaqəlidir. Bu, xalq təqviminə görə, köhnə ilin tamam olub, yeni ilin başlandığı vaxtdır. "Yeddiləvin günü" süfrələrə 7 adda cürbəcür nemətlər düzülür. "Yeddiləvin axşamı" tonqallar qalanır. Əhalinin bayram sevincini ifadə edən tonqal həm həyətlərdə, həm də dağların uca nöqtəsində yandırılır. Bu, hamının bayram sevincini birə-beş artırır. Daha sonra hamı Novruzun qədəm qoyduğu günü səbirsizliklə gözləyir.

Martın 21-nə keçən gecə süfrələr açılır, onun üzərinə müxtəlif şirniyyatlar, şəkərbura, paxlava, müxtəlif növ halvalar, kökələr, kətələr, meyvə quruları, cəviz, iydə, mövüc, sucuq, alana və başqa nemətlər düzülür. Geniş süfrə açmaqda məqsəd bolluq, bərəkət dolu bir ilə qədəm qoymaq, eyni zamanda bayram günlərində görüşə gələn qohum-qonşuları qonaqpərvərliklə qarşılamaqdır.

Bayramın birinci günündən başlayaraq hamı bir-birinə "bayramın mübarək olsun!" – deyər, qarşılığında eyni cavabı alar. Uşaqlar bayram günü qapı-qapı gəzib hər bir ailəyə uca səslə "bayramınız mübarək, neçə belə illərə çıxasınız", – söyləyər, əvəzində ailədən bayram payı, rənglənmiş yumurtalar alarlar.

Novruz həm də insanların həyatına mehribanlıq, firavanlıq gətirir. Bu bayramda küsülülər barışır, inciklikər unudulur, hamı deyibgülür. Martın 21-dən etibarən əhalinin bayram görüşləri başlayır. Yeniyetmə gənclər, eyni zamanda kişilər və qadınlar özlərindən böyük bacı-qardaşlarının, valideynlərinin, ağsaqqalların, ağbirçəklərin görüşünə gedər, onlara hörmət əlaməti olaraq bayram payı apararlar.

Martın 21, 22, 23-də Ordubad şəhərində, eləcə də onun kəndlərində "Xanbəzəmə" oyunu təşkil olunur. Şəhərin "Sərşəhər" və ya "Mingis" deyilən meydanında Xan bəzədilir. Bir nəfər hündürboy, zəhmli adamı xan kimi bəzəyib taxt-taca əyləşdirirlər. Xan meydana at üstündə daxil olur. Ətrafındakı vəzir, vəkil, üç fərraş, bir cəllad isə onu qoruyur. İki nəfər yelpiklə xanı yelləyir. "Yaraqlı-yasaqlı" fərraşlar xanın hüzurunda əmrə müntəzir dayanırlar. Cəllad qırmızı libasda, əlində balta meydanın aşağı başında gözləyir. Kosa ilə Keçəl tez-tez meydana girib xanı güldürmək istəyirlər.

Xan, adətən, çox ciddi görkəmdə olmalı, oyunun şərtinə əsasən gülməməlidir. Əgər gülərsə, meydanda və ya mərasimin təşkil olunduğu yerdə mövcud olan hovuzda camaat onu suya basır, ya da onu ciddi cəza gözləyir. Üç gün ərzində bütün göstərilən məzəli hərəkətlərə dodağı belə, qaçmayan "xan" rolunu icra edən şəxs xalq tərəfindən mükafatlandırılır.

Bu bayramda uşaqların və böyüklərin sevdiyi nemətlərdən biri də boyanmış yumurtadır. İnama görə, hər bir evdə yumurta boyanmalıdır. Bayram görüşünə gedən hər kəs, əgər evdə balaca uşaq varsa, mütləq boyanmış yumurta aparır. Novruz bayramında yumurta oyunları böyük maraq doğurur. Ordubadda bayramda yaşına baxmayaraq, bütün insanlar bu oyunu oynayırlar. Kimin yumurtanı əlində və necə saxlayacağı, kimin isə üstdən və necə vuracağı razılaşdırılır. Yumurta döyüşdürərkən uduzan tərəf sınıq yumurtanı qalib gələnə verir.

Bayramdan sonrakı adətlərdən biri də bayram vaxtı göyərdilmiş səmənilərin axar suya atılmasıdır. İnanca görə, səməni axar suya atılarsa, ruzi-bərəkət ilboyu bol olar.

Göründüyü kimi, Naxçıvanda Novruz mərasimləri digər bölgələrimizlə müqayisədə özünəməxsus adət-ənənələr ilə keçirilir. Qədim diyarımızın sakinləri milli kökə və adət-ənənələrə qırılmaz tellərlə bağlı olduğu üçün el bayramımız olan Novruzu hər zaman böyük sevinclə, təntənəli şəkildə qeyd edəcək, onu qoruyub gələcək nəsillərə ən dəyərli milli bayram kimi çatdıracaqlar. Min illər olduğu kimi, Novruz ənənələri bundan sonra da yaşadılacaqdır.

**Güntac ŞAHMƏMMƏDLİ**

*21 mart – Ümumdünya Daun Sindromlu İnsanlar Günü ilə bağlı Naxçıvan şəhərində tədbir keçirilib.*

## Ümumdünya Daun Sindromlu İnsanlar Günü ilə bağlı tədbir



Tədbirdə Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış edərək məhdud fiziki imkanlı şəxslərə, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqlara göstərilən qayğıdan danışıblar. Bildirilib ki, bu kateqoriyadan olan şəxslərin sosial müdafiəsinin gücləndirilməsi, onların cəmiyyətə inteqrasiyası istiqamətində davamlı tədbirlər həyata keçirilir.

Vurğulanıb ki, muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların sosial reabilitasiyalarını təmin etmək məqsədilə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Defektoloji bölmə, onun Şərur və Ordubad rayonlarındakı bölmələri, əmək terapiyası, təlim-bərpa, art-terapiya, kinekt-oyunlar otaqları, həmçinin psixoloji dəstək xidməti, Uşaq Bərpa Mərkəzində isə multisensorlu və erqoterapiya reabilitasiya otaqları, habelə idman bölmələri yaradılıb. Eyni zamanda daun sindromlu uşaqların valideynləri ilə maarifləndirici görüşlərin keçirilməsi də daim diqqət mərkəzində saxlanılır.

Tədbirin bədii hissəsində sağlamlıq imkanları məhdud ifaçılardan ibarət "İnam" musiqi qrupu və Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin "Əlvan çiçəklər" mahnı və rəqs ansamblı konsert proqramı ilə çıxış ediblər.

Sonda daun sindromlu 74 şəxsə bayram hədiyyələri təqdim olunub.

Valideynlər göstərilən bu qayğıya görə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Bu bayram da süfrələrimizdə bolluq olacaq

*Bir neçə ildir ki, Naxçıvan şəhərindəki Mərkəzi bazarda təşkil olunan bayram yarmarkası Novruzu layiqincə keçirməyə imkan verir.*



Məlumat üçün bildirək ki, şəhər əhalisinin kənd təsərrüfatı və ərzaq məhsullarına olan tələbatının daha dolğun ödənilməsi, istehlakçıların seçim imkanlarının artırılması, süni qiymət artımının qarşısının alınması məqsədilə martın 14-dən keçirilən bayram yarmarkasına muxtar respublikada fəaliyyət göstərən 29 istehsal müəssisəsi tərəfindən 117 adda 223 çeşiddə məhsul çıxarılıb.

Burada 9 yerli sahibkar tərəfindən idxal kənd təsərrüfatı məhsullarının topdansatışı da təşkil olunub. Bundan əlavə, muxtar respublikanın müxtəlif bölgələrindən yarmarkaya 200-dən çox torpaq mülkiyyətçisi məhsul gətirib.

Yarmarkada gördüklərimiz muxtar respublikamızda olan bolluğu əks etdirmək baxımından insanda xoş təəssüratlar yaradır. Buradakı qələbəlik isə belə deməyə əsas verirdi ki, insanlar bu tədbirdən xeyli razıdırlar.

Qeyd edək ki, yarmarka martın 20-dək davam etdiriləcək.

**Gülcamal TAHİROVA**

## Köhnə əşyalar və pirotexniki vasitələr məhv edilib

Gömrük orqanları tərəfindən mart ayının 16-da növbəti məhvetmə tədbiri keçirilib. Kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə yandırılaraq məhv edilən mallar, əsasən, köhnə, işlənmiş ev əşyalarından, müxtəlif avadanlıq və ləvazimatlardan, pirotexniki vasitələrdən, saxta pullardan ibarət olub. 9 adda 17 ədəd mebel əşyası, 8 adda 15 ədəd mətbəx və kompüter avadanlığı, 6 adda 10 ədəd müxtəlif ev əşyası, 5 adda 41 ədəd təsərrüfat malı və digər avadanlıqlar, 5 ədəd qaz sobası müvafiq müşayiət sənədləri olmadığı və standartlara cavab vermədiyi üçün saxlanılıb. Xaricdən ayrı-ayrı vətəndaşlar tərəfindən gətirilən köhnə, işlənmiş mallar arasında avtomobil şinləri, ehtiyat hissələr, velosipedlər və sair də olub.

Xaricdən gətirilən mənşəyi bilinməyən, gigiyenik cəhətdən təhlükəli ola biləcək köhnə, işlənmiş əşyalar, xüsusən də geyimlər bu baxımdan xüsusi riskli mallar sırasındadır. Ayrı-ayrı şəxslərin gətirdiyi ümumi çəkisi 400 kiloqramdan artıq geyim əşyası da bu səbəbdən saxlanılıb və məhvinə qərar verilib.

615 ədəd meyvə şirəsi, 54 ədəd saç boyası, 18 ədəd şampun keyfiyyət standartlarına cavab verməldiyindən və üzərində istifadə müddəti göstərilmədiyindən, 270 ABŞ dolları və 100 türk lirəsi saxta olduğundan, 301 bağlam siqaret isə təcavüzkar Ermənistan Respublikasına aid olduğundan məhv edilib.

Gömrük orqanları tərəfindən milli mentalitetimizə zidd olan və dini dəyərlərimizlə uzlaşmayan ədəbiyyat və vasitələrin, qanunvericiliklə mülki dövriyyəsi məhdudlaşdırılmış digər malların muxtar respublikaya gətirilməsinə qarşı mübarizə tədbirlərinin davamı olaraq saxlanılan 10 adda müxtəlif vasitələr, o cümlədən 22 ədəd beşbarmaq xüsusi qaydada məhv edilib.

Novruz bayramı ərəfəsində gömrük orqanları tərəfindən qanunvericiliyə əsasən dövriyyəsi tamamilə məhdudlaşdırılmış tezalışan maddələrin və pirotexniki vasitələrin xaricdən gətirilməsinə qarşı mübarizə gücləndirilib. Ötən illərlə müqayisədə pirotexniki məmulatların qanunsuz dövriyyəsinə cəhdlərin sayında azalma müşahidə olunsa da, bayram ərəfəsində yenə də bir sıra faktlar aşkar edilib. Gömrük orqanları tərəfindən saxlanılan 6 adda, ümumilikdə, 5565 ədəd pirotexniki vasitə də yandırılıb.

Qanunvericiliyin tələblərinin, istehsalçıların və istehlakçıların hüquqlarının müdafiəsi, əhalinin keyfiyyətli idxal məhsulları ilə təminatı, insan sağlamlığının və ətraf mühitin qorunması istiqamətində işlər bundan sonra da davam etdiriləcək, gömrük qaydalarının pozulması hallarına qarşı lazımi tədbirlər görüləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 228